Funded by the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

# AZƏRBAYCANDA KİÇİK VƏ ORTA İSTEHSAL MÜƏSSİSƏLƏRİ ÜÇÜN MƏHSULUN EKOLOJİ İZİNİN (MEİ) TƏKMİLLƏŞDİRİLMƏSİ




## Avropa İttifaqının Azərbaycan ilə ticarət əlaqələri

Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında ticarət əlaqələri 1999-cu ildə imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsaslanır[1]. Bu əməkdaşlıq Avropa Qonşuluq Siyasətinin dəyər və prinsiplərini əks etdirir və digərləri ilə yanaşı, iqtisadi inkişafa və bazarların açılmasına nail olmaq məqsədini, həmçinin əlaqə, enerji səmərəliliyi, ətraf mühit və iqlim fəaliyyətini əhatə edir. Saziş ümumi dəyərlərin və prioritetlərin təşviqindən əlavə, dayanıqlı iqtisadi inkişafı dəstəkləmək üçün ticarət və ahəngdar iqtisadi əlaqələri də təşviq edir. Bundan əlavə, qanunvericilik, iqtisadi, sosial, maliyyə, elmi, texnoloji və mədəni əməkdaşlıq üçün əsas yaradır. Bazaryönümlü iqtisadi islahatlar, həmçinin iqtisadiyyatın davamlı diversifikasiyasına, ÜTT-yə üzvlüyün dəstəklənməsinə, biznes və investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə Əməkdaşlıq Sazişinin bir hissəsidir.

11 iyun 2018-ci il tarixində Aİ və Azərbaycan yeni Tərəfdaşlıq prioritetləri barədə razılığa gələrək, növbəti illərdə Tərəfdaşlığı istiqamətləndirəcək və genişləndirəcək birgə səylərin müəyyən edilməsi və təşviq edilməsində irəliyə doğru mühüm addım atmış oldu. Bu, aqrar islahatların və Azərbaycanın ümumi kənd təsərrüfatının modernləşdirilməsi, özəlləşdirilməsi və yenidən qurulmasına töhfə verdi. Dəyişikliklər, həmçinin aqrar-sənaye və xidmət sahələrinin inkişafına yol açaraq, milli istehsalçılara ticarətdə və malların ixracında əlverişli şəraitdən daha çox yararlanmağa imkan verdi.

Bundan əlavə, Saziş ətraf mühitin mühafizəsini təmin etməklə və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması və aqrobiznesin inkişafı zərurətini nəzərə alaraq, Azərbaycan məhsulları üçün daxili və xarici bazarların inkişafına imkan yaratmağa çalışır. Həmçinin Azərbaycan standartlarının Aİ-nin sənaye və kənd təsərrüfatı ərzaq məhsulları ilə bağlı qaydalarına (o cümlədən sanitar və fitosanitar standartlara) tədricən uyğunlaşdırılmasını əhatə edir və bu da yerli məhsulların keyfiyyətinin uzunmüddətli yaxşılaşdırılması üçün meyar yaradacaq. Sazişə əsasən, tərəflər ətraf mühitin çirklənməsini effektiv şəkildə izləmək və ətraf mühitin vəziyyətini daim qiymətləndirmək yolu ilə ətraf mühitin deqradasiyası ilə mübarizə aparmağı hədəfləyirlər. Sənaye cəhətdən Kiçik və Orta Müəssisələr (KOB) texniki yardımdan (o cümlədən marketinq, mühasibat uçotu və keyfiyyətə nəzarət üzrə ixtisaslaşdırılmış təlimlər) faydalanacaqlar. Sonuncusu, UNIDO tərəfindən EU4Environment proqramı çərçivəsində təqdim edilən Resurslardan Səmərəli və Daha Təmiz İstehsal (RSDTİ) fəaliyyətləri ilə uyğun olması səbəbilə xüsusilə vacibdir. 2019-cu ildən etibarən Aİ tərəfindən maliyyələşdirilən EU4Environment Action Azərbaycanı və digər Şərq Tərəfdaşlığı (ŞT) ölkələrini yaşıl inkişaf yolunu davam etdirməkdə dəstəkləyir. Burada UNIDO KOB-lar və peşəkarlar arasında RSDTİ metodologiyasını tətbiq etmək üçün milli imkanlar yaratmışdır. Azərbaycanda RSDTİ fəaliyyətinin 1-ci mərhələsinin icrasına 2021-ci ilin may ayında - UNIDO ACE Məsləhətçilərinin rəhbərlik etdiyi şirkətlər konsorsiumundan ibarət Milli İcraçı Tərəfdaşla müqavilə bağladığı zaman başlanmışdır. O vaxtdan bəri, RSDTİ və Sənaye Tullantılarının Xəritəçəkmə layihələri (STX) vasitəsilə dairəvi dəyər zəncirlərinin yaradılmasını dəstəkləmək səylərində mühüm nailiyyətlər və öyrənmələr bildirilmişdir.

## Aİ-Azərbaycan ticarət statistikasının qısa şərhi




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın xarici ticarəti haqqında hesabat*[2]

Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır və Azərbaycanın ümumi ticarətinin təxminən 45%-ni təşkil edir.[3] Aİ eyni zamanda ən böyük ixrac bazarı (51% pay) və ikinci ən böyük idxal bazarıdır (16% pay). Aİ-nin Azərbaycandan idxalı əsasən mineral yanacaq, sürtkü yağları və əlaqəli materiallardan ibarətdir. Aİ-nin idxal etdiyi digər məhsullara ərzaq və heyvandarlıq, kimyəvi maddələr və əlaqəli məhsullar, həmçinin müəyyən istehsal malları daxildir. Aİ-nin Azərbaycana ixracının əksəriyyətində maşın və nəqliyyat avadanlığı üstünlük təşkil etsə də, bəzi Aİ ixracatına kimyəvi maddələr və əlaqəli məhsullar, sənaye malları və

[1] Mənbə: https://www.consilium.europa.eu/en/policies/eastern-partnership/azerbaijan/
[2] Mənbə: https://www.stat.gov.az/source/trade/?lang=en
[3] Mənbə: https://policy.trade.ec.europa.eu/eu-trade-relationships-country-and-region/countries-and-regions/azerbaijan_en#:~:text=The%20EU%20is%20Azerbaijan's%20main,16%25%20share%20of%20Azerbaijan's%20imports

məmulatları, qida və canlı heyvanlar daxildir.[4]




Şəkil 1. Azərbaycanın ən böyük qeyri-enerji ixracları.[5]

## Ekoloji performansın qısa şərhi

"Ekoloji uyğun" olmaq və ya "eko-etiketlər" əldə etmək üçün məhsul və xidmətlər öz sektorları və ya kateqoriyaları daxilində ekoloji cəhətdən daha üstün olduqlarını təsdiqləmək məqsədilə müxtəlif könüllü üsullardan istifadə edə bilərlər. Bunun geniş tətbiqetmə sahəsi var (qidadan tutmuş sənaye mallarına, maşınqayırma, istehsal müəssisələri, tikinti və xidmətlərə qədər). Təkcə Aİ-də aşağıdakılar kimi iddialı meyarların daxil olduğu 230-dan çox eko-etiket var[6]:

1. zəhərli maddələrin ətraf mühitə təsiri
2. meşələrin qırılması,deqradasiyası
3. tullantı utilizasiyasının pis idarə olunması, təkrar emalın olmaması
4. resursların (su, enerji, xammal), məhsulların (qida tullantıları, yuyucu vasitələrdən həddən artıq istifadə) səmərəsiz istifadəsi.
5. lazımsız karbon emissiyaları

## Avropa İttifaqında ekoloji performans

Məhsullarını Aİ-də ekoloji cəhətdən təmiz kimi bazara çıxarmağa çalışan şirkətlər üçün bazar imkanları və bazar çətinlikləri arasında düzgün balansı qorumaq çətin ola bilər. Bunun səbəbi, çox vaxt geniş çeşidli seçimlərin, etiketləmə vasitələrinin və təsnifatın şirkətlər üçün əlavə xərclər və ya gecikmələrə, istehlakçılar üçün isə çaşqınlıq və inamsızlığa yol açmasıdır. 2013-cü ildə Avropa İttifaqının Yaşıl Məhsullar üzrə Vahid Bazar (YMVB) təşəbbüsü çərçivəsində Avropa Komissiyası bu cür problemləri həll etmək və ekoloji cəhətdən təmiz məhsulların yoxlanılması, tənzimlənməsi və təşviqi üsullarının uyğunlaşdırılmasına kömək etmək üçün Məhsulun Ekoloji İzi (MEİ) metodologiyasını təqdim etdi. YMVB, həmçinin 2020-ci il üçün MEİ ilə birlikdə dayanıqlı məhsullar, xidmətlər və biznes modellərini istisna deyil, normaya çevirəcək güclü və dayanıqlı məhsul siyasəti çərçivəsinin yaradılmasını təmin edən "Dairəvi İqtisadiyyat Fəaliyyət Planı" kimi Aİ-nin digər təşəbbüsləri ilə sıx əlaqəlidir.

**Qafqaz üzrə Regional Ekoloji Mərkəzin (REC Caucasus)**
***Azərbaycan filialı, Aslan Şıxəliyev***
Tel: +994-55-622-69-00
E-poçt: aslan.shikhaliyev@rec-caucasus.org
Veb: www.rec-azerbaijan.org

## Məhsulun Ekoloji İzi (MEİ) metodologiyası

MEİ əmtəə və ya xidmətin öz həyat dövrü boyunca ətraf mühitə təsirinin çox meyarlı ölçülməsidir. MEİ ilə əlaqəli məlumatlar əmtəə və xidmətlərin tədarük zənciri fəaliyyətləri (xammalın hasilatından tutmuş istehsal və istifadə mərhələsinə, tullantıların utilizasiyasına qədər) nəzərə alınmaqla, onların ətraf mühitə təsirlərini azaltmaq məqsədi ilə hazırlanır. Qısacası, MEİ məhsul və ya xidmətin ətraf mühitə təsirlərinin kəmiyyətini göstərən Həyat Dövrü Qiymətləndirilməsinə (HDQ) əsaslanan və Aİ tərəfindən tövsiyə olunan alətdir. Bütün bunları resurs, material və ya enerji axınlarının ətraf mühitə təsirini modelləşdirməklə və istehsalla əlaqəli tullantı axınlarını daha yaxşı müəyyən etmək üçün məhsulun təchizat zəncirini nəzərdən keçirməklə edir.[7]

MEİ metodunun HDQ ilə əhəmiyyətli oxşarlıqları olsa da, onu təkrarlamır. HDQ məhsulun həyat dövründə ekoloji təzyiqləri, faydaları, mübadilələri və mümkün təkmilləşdirmə sahələrini kəmiyyətcə qiymətləndirən standartlaşdırılmış metodologiyadır. HDQ məhsulun mərhələlərini (istehsal, daşınma, istifadə və son istifadə vaxtı kimi) araşdırır. Ayrı-ayrılıqda, MEİ HDQ-nin yerinən yetiriməsinin bir üsuludur, lakin daha ardıcıl, etibarlı və təkrarlana bilən nəticələr təqdim etmək üçün əlavə gücə malikdir. Bunun səbəbi MEİ metodologiyasının HDQ-ya nisbətən az çevik olmasıdır. Məlumatların keyfiyyətinə dair daha ciddi tələblər qoyur və şərh azadlığını azaldan verilənlər bazalarının ölçülməsini və standarlaşdırılmasını təmin edir.[8]

## MEİ və ticarət

Ekoloji cəhətdən təmiz məhsulların ticarətini təmin etmək və stimullaşdırmaq üçün Aİ Yaşıl Məhsullar üzrə Vahid Bazar (YMVB) xüsusi qaydalar və tələblər təqdim edir. Bu mənada YMVB ekoloji iz ilə bağlı tədqiqatların kateqoriya və sektor tələblərini müəyyən etmək üçün Məhsulun Ekoloji İzi üzrə Kateqoriya Qaydaları (MEİKQ) və Təşkilatın Ekoloji İzi üzrə Kateqoriya Qaydaları (TEİKQ) təklif edir. MEİKQ xüsusi məhsul qrupları və ya kateqoriyaları ilə bağlı MEİ qaydalarından ibarət olub, istehsal olunduğu ölkədən asılı olmayaraq Aİ-də satılan və/və ya istehlak edilən məhsullar üçün etibarlıdır. MEİ metodologiyası və onun Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində tətbiqi haqqında kitabçamızda ətraflı məlumat əldə edin (İngilis və Azərbaycan dillərində əlçatandır).

## EU4Environment proqramı haqqında

Aİ tərəfindən maliyyələşdirilən EU4Environment Action təbii kapitalı qorumaq və daha yaxşı istifadə etmək, insanların ekoloji rifahını artırmaq və Şərq Tərəfdaşlığı ölkələrində daha "yaşıl" iqtisadi artımı stimullaşdırmaq məqsədi daşıyır. Proqramın təşəbbüsləri siyasət və qanunvericilik dəyişikliklərinin həyata keçirilməsinə kömək edir, planlaşdırma və investisiyaları yaşıllaşdırır və yeni biznes modellərini qəbul etməklə və yaşıl iş yerləri yaratmaqla innovativ texnologiyaların mənimsənilməsini stimullaşdırır.

### Məsuliyyətdən yayınma

Bu nəşr Avropa Ittifaqının yardımı ilə hazırlanıb. Kitabçanın məzmunu yalnız UNIDO-nun məsuliyyətindədir və Avropa İttifaqının fikirlərini əks etdirmir. Bu kitabça Birləşmiş Millətlər Təşkilatının rəsmi redaktəsi olmadan hazırlanmışdır. Bu sənəddə istifadə olunan təriflər və materialların təqdimatı Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) Katibliyinin hər hansı bir ölkənin, ərazinin, şəhərin və ya ərazinin və ya onun hakimiyyət orqanlarının hüquqi statusu, eləcə də onun sərhədlərinin və ya hüdudlarının məhdudlaşdırılması, yaxud iqtisadi sistemi və ya inkişaf səviyyəsi ilə bağlı hər hansı mövqeyinin ifadəsi deyil. "İnkişaf etmiş", "sənayeləşdirilmiş" və ya "inkişaf etməkdə olan" kimi təyinatlar statistik rahatlıq üçün nəzərdə tutulmuşdur və inkişaf prosesində konkret ölkənin və ya ərazinin çatdığı mərhələ haqqında qərarı ifadə etmir. Firma adlarının və ya kommersiya məhsullarının qeyd edilməsi onların UNIDO tərəfindən təsdiq edildiyi mənasına gəlmir. Qeyd edilən rəylər, rəqəmlər və təxminlərdən müəlliflər məsuliyyət daşıyır və mütləq UNIDO və onun Üzv Dövlətlərinin fikirlərini əks etdirdiyi və ya təsdiqini daşıdığı hesab edilməməlidir.

© – 2023 – UNIDO. Bütün hüquqlar qorunur. Avropa Birliyinin şərtlərinə əsasən lisenziya verilmişdir.

**Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO)**
**Tatyana Çernyavskaya**
EU4Environment Layihə Meneceri
Tel: +43 1 26 0 26 3106
E-poçt: t.chernyavskaya@unido.org
Veb: www.unido.org

Action implemented by:

[4] Yuxarıda qeyd edilən mənbə
5 Mənbə: https://documents1.worldbank.org/curated/en/099100009222236784/pdf/P17532606988e2056084e603c 9c48ddc618.pdf
6 Mənbə: https://ec.europa.eu/environment/ecolabel/did-you-know.html
7 Mənbə: https://www.eu4environment.org/app/uploads/2022/05/Leaflet-advancing-product-environmental-footprint.pdf
8 Mənbə: https://www.meti.go.jp/committee/kenkyukai/sangi/lca/pdf/001_04_00e.pdf